# ANLAŞMA MEMORANDUMU:
# Azərbaycan Dövlət Aqrar Universiteti, Azərbaycan, ilə Kordoba Milli Universiteti, Argentina, arasında akademik və elmi-tədqiqat əməkdaşlığı haqqında

**Azərbaycan Dövlət Aqrar Universiteti**, bundan sonra – ADAU, Azərbaycan, Gəncə şəhəri, Atatürk prospekti 450 ünvanında yerləşən, rektor professor Zəfər Qurbanov tərəfindən təmsil olunan və Argentina, Kordoba şəhəri, Universitet şəhərciyi, Pabellón Argentina, 2-ci mərtəbə, Av. Raúl Haya de la Torre s/n ünvanında yerləşən, rektor magistr Jhon Boretto tərəfindən təmsil olunan **Kordoba Milli Universiteti** (bundan sonra – UNC), təhsil və elmi-tədqiqat sahələrində qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə aşağıdakı Anlaşma Memorandumunu bağlamışlar. Memorandum hər iki universitetdə təmsil olunan bütün sahələri əhatə edir.

**Maddə I: Məqsəd**

Bu Anlaşma Memorandumunun məqsədi bərabərlik və qarşılıqlılıq əsasında akademik və təhsil əməkdaşlığının inkişaf etdirilməsi, hər iki universitet arasında əlaqələrin və qarşılıqlı anlaşmanın gücləndirilməsidir.

**Maddə II: Əməkdaşlığın əhatə dairəsi**

Hər iki tərəf aşağıdakı istiqamətlərdə akademik əməkdaşlığın inkişaf etdirilməsini öhdəsinə götürür:

1. Elmi-tədqiqat işlərində əməkdaşlıq və nəticələrin nəşri.
2. Akademik materiallar, nəşrlər və digər elmi məlumatların mübadiləsi.
3. Mümkün olan hallarda birgə elmi-tədqiqat və təhsil layihələrinin həyata keçirilməsi.
4. Öyrənmə və tədris fəaliyyəti, o cümlədən birgə diplom proqramlarının hazırlanması (birgə proqram);
5. Hər iki universitetin razılaşdığı digər təhsil və akademik mübadilələr.

**Maddə III: Maliyyələşmə**

1. Tərəflər fəaliyyətlərin konkret planları və təşkilati məsələlərinin ayrıca müzakirə olunacağı və maliyyə vəsaitinin mövcudluğundan asılı olacağı barədə razılığa gəlirlər.
2. Mövcud olacağı təqdirdə üçüncü tərəflərdən maliyyə vəsaiti cəlb oluna bilər.

**Maddə IV: İcra**

Əməkdaşlıq mübadiləni əhatə edəcəyi təqdirdə, mübadilə fəaliyyətlərinin əhatə dairəsi bu Memorandumun vacib hissəsi sayılacaq olan Mübadilə Razılaşmasında müəyyən ediləcək. Tələbə, tədqiqatçı və müəllim mübadiləsinin başlanması üçün ayrıca mübadilə razılaşması imzalanmalıdır. Bu razılaşma bu Memorandumla eyni vaxtda və ya sonradan ayrıca imzalana bilər.

Birgə diplom proqramlarına dair hər hansı əməkdaşlığın icrası barədə detallar həmin hal yarandıqda iki universitet arasında ayrıca müzakirə olunacaq və xüsusi Razılaşma ilə rəsmiləşdiriləcək.

**Maddə V: Mübahisələrin həlli**

Bu Memorandumun şərhində və tətbiqində yaranan fikir ayrılıqları qarşılıqlı danışıqlar yolu ilə dostluq şəraitində həll olunacaq.

**Maddə VI: Qüvvədə olma müddəti, yenilənmə, dəyişikliklər və ləğv etmə**

1. Bu Memorandum imzalandığı tarixdən etibarən beş (5) il müddətinə qüvvədədir. Müddət bitdikdə, tərəflərdən hər hansı biri bunun əksi barədə niyyət ifadə etmədikdə, Memorandum avtomatik olaraq daha beş (5) il müddətinə uzadılır.
2. Memorandum hər hansı tərəfin 6 (altı) ay əvvəl yazılı bildirişi ilə ləğv oluna bilər. Ləğv edildikdə, icrada olan əməkdaşlıq proqramları yekunlaşanadək davam etdiriləcək.
3. Memoranduma hər hansı dəyişiklik yalnız hər iki universitetin yazılı razılığı ilə edilə bilər və bu sənədə əlavə olunacaqdır.
4. Bu Memorandum hər iki tərəfin imzası ilə qüvvəyə minir.
5. Memorandum bərabər qüvvəyə malik iki nüsxədə – Azərbaycan, ispan və ingilis dillərində tərtib edilmişdir. Bunun təsdiqi olaraq, Tərəflər bu sənədi aşağıda göstərilən tarixdə imzalayırlar. Təfsir zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətndən istifadə edilir.

| | |
|---|---|
| **Azərbaycan Dövlət Aqrar Universiteti adından** | **Kordoba Milli Universiteti adından** |
| **Professor Dr. Zəfər Qurbanov**<br>**Rektor** | **Magistr Jhon Dario Boretto**<br>**Rektor** |
| Tarix: | Tarix: |

IF-2026-00130698-UNC-MCI#PRI

Universidad Nacional de Córdoba
2026

**Hoja Adicional de Firmas**
**Informe Gráfico**

**Número:** IF-2026-00130698-UNC-MCI#PRI

CORDOBA, CORDOBA
Viernes 6 de Marzo de 2026

**Referencia:** Convenio Marco- UNC y ADAU- versión en azerbaiyano corregida

---

El documento fue importado por el sistema GEDO con un total de 2 pagina/s.

Digitally signed by GDE UNC
DN: cn=GDE UNC, c=AR, o=Universidad Nacional de Cordoba, ou=Prosecretaria de Informatica, serialNumber=CUIT 30546670623
Date: 2026.03.06 16:21:19 -03'00'

VALERIA BIZARRO
Administrativa
Movilidad y Cooperación Internacional Prosecretaría de Relaciones Internacionales
Universidad Nacional de Córdoba

Digitally signed by GDE UNC
DN: cn=GDE UNC, c=AR, o=Universidad Nacional de Cordoba, ou=Prosecretaria de Informatica, serialNumber=CUIT 30546670623
Date: 2026.03.06 16:21:25 -03'00'